*Azərbaycan və Pakistan arasında möhkəm təməllər üzərində qurulan strateji əməkdaşlıq qardaşlıq və dostluq ruhu ilə yoğrulub. Bu münasibətlər hər zaman qarşılıqlı dəstək və ortaq maraqlara əsaslanan siyasətlə müşayiət olunub. Zaman keçdikcə siyasi, iqtisadi, hərbi və mədəni-humanitar sahələrdə genişlənən əlaqələr, həmçinin parlamentlərarası münasibətlərin möhkəmlənməsi ilə daha da dərinləşib. Bu iki qardaş ölkə beynəlxalq arenada da daim bir-birinin yanında olub, strateji tərəfdaşlığını gücləndirib. Azərbaycan və Pakistan arasında diplomatik münasibətlərin əsası ölkəmizin müstəqilliyini bərpa etməsindən dərhal sonra qoyulub. O vaxtdan bəri rəsmi Bakı və İslamabad arasında strateji tərəfdaşlıq sürətlə inkişaf edərək qarşılıqlı hörmət və etimada əsaslanan güclü münasibətlər formalaşdırıb.*




# Qarşılıqlı hörmət və etimada əsaslanan güclü münasibətlər

İki ölkə arasında yüksək səviyyəli təmaslar və qarşılıqlı səfərlər Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 1994-cü ilin dekabrında Kasablankada Pakistanın ovaxtkı Baş naziri Benazir Bhutto ilə görüşündən sonra daha intensiv xarakter alıb. Məhz bu tarixi görüş iki ölkə arasında əlaqələrin yeni inkişaf mərhələsinə qədəm qoymasına səbəb olub. Ardınca, 1995-ci ilin oktyabrında Pakistan Prezidenti Sərdar Faruk Əhməd Xan Leqari Bakıya rəsmi səfər edib. 1996-cı ilin aprelində isə Ulu Öndər Heydər Əliyevin Pakistana rəsmi səfəri bu münasibətlərin daha da dərinləşməsi üçün mühüm addım olub. Prezident İlham Əliyev də Azərbaycan-Pakistan əlaqələrinin inkişafına xüsusi önəm verir. Dövlət başçısı Pakistanın ali siyasi rəhbərliyi ilə etibarlı və səmimi münasibətlər quraraq strateji əməkdaşlığın güclənməsinə töhfə verir. Bunun nəticəsində ikitərəfli əlaqələr sürətlə inkişaf edir və müxtəlif sahələrdə əməkdaşlıq genişlənir. Prezident İlham Əliyevin 2005-ci ilin aprelində Pakistana rəsmi səfəri, eləcə də 2017-ci ilin fevralında İqtisadi Əməkdaşlıq Təşkilatının 13-cü Zirvə toplantısında iştirak etmək üçün bu ölkəyə işgüzar səfəri iki dövlət arasında yeni əməkdaşlıq istiqamətlərinin müəyyənləşməsinə səbəb olub. Bu dostluq və qardaşlıq münasibətləri zamanın sınağından keçərək bu gün daha güclü və möhkəm şəkildə davam edir. Pakistan İslam Respublikası Prezidentinin 2015-ci ildə Azərbaycana rəsmi, 2019-cu ildə isə işgüzar səfərləri, eləcə də bu ölkənin Baş nazirinin 2016 və 2023-cü illərdə gerçəkləşdirdiyi rəsmi səfərlər Bakı ilə İslamabad arasındakı qardaşlıq münasibətlərini daha da möhkəmləndirib. Bu səfərlər ikitərəfli əməkdaşlığın müxtəlif sahələrdə inkişafına təkan verərək strateji tərəfdaşlığın güclənməsinə xidmət edib. Xüsusilə 2015-ci ilin martında Pakistan Prezidenti Məmnun Hüseynin Azərbaycana rəsmi səfəri zamanı imzalanan "Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasında strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə" iki ölkə arasında dostluq və qardaşlıq əlaqələrinin yeni mərhələyə keçməsinə səbəb olub. Ötən ilin iyulunda Prezident İlham Əliyevin Pakistana dövlət səfəri Azərbaycan-Pakistan strateji tərəfdaşlığının daha da güclənməsi baxımından mühüm tarixi hadisə kimi yadda qalıb. Bu səfər çərçivəsində Prezident İlham Əliyev Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif və Prezident Asif Əli Zərdari ilə görüşlər keçirib. Həmçinin iki ölkə arasında əməkdaşlığın müxtəlif sahələrini əhatə edən 15 sənədin imzalanması, Azərbaycan və Pakistan arasındakı müqavilə-hüquq bazasını daha da zənginləşdirib. Bütün bunlar iki dost və qardaş dövlətin gələcək əlaqələrinin daha geniş miqyasda inkişaf edəcəyini nümayiş etdirir.

Ötən il Bakıda baş tutan mötəbər beynəlxalq tədbirlərdən biri - COP29 İqlim Sammiti çərçivəsində Prezident İlham Əliyevlə Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif arasında keçirilən görüş Azərbaycan-Pakistan münasibətlərinin daha da inkişaf etdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edib. Görüş zamanı ikitərəfli əməkdaşlığın genişləndirilməsi, qarşılıqlı səfərlərin intensivləşdirilməsi və beynəlxalq təşkilatlar çərçivəsində birgə fəaliyyətin gücləndirilməsi məsələləri müzakirə olunub. Həmçinin Azərbaycan-Türkiyə-Pakistan üçtərəfli əməkdaşlığının regiondakı strateji əhəmiyyəti bir daha vurğulanıb. Azərbaycanla Pakistan arasında qurulmuş sıx münasibətlərin təməlində ortaq tarix, mədəniyyət və dini dəyərlər dayanır. Pakistan uzun illərdir ki, Azərbaycanın beynəlxalq müstəvidə haqlı mövqeyini ardıcıl və prinsipial şəkildə müdafiə edir. Rəsmi İslamabad Azərbaycanı dəstəkləməklə həmişə öndə olub və bu mövqeyini BMT, İƏT, Qoşulmama Hərəkatı və digər nüfuzlu təşkilatlar çərçivəsində daim nümayiş etdirib. Ötən ilin sonunda Azərbaycanın İqtisadi Əməkdaşlıq Təşkilatı (D-8) ailəsinə qoşulması da Pakistanla iqtisadi tərəfdaşlıq üçün yeni üfüqlər açıb, ticarət və investisiya sahələrində əməkdaşlığı daha da gücləndirmək üçün əlverişli zəmin yaradıb.



Pakistan Qarabağ münaqişəsi dövründə və xüsusilə 44 günlük Vətən müharibəsi zamanı Azərbaycanın haqlı mövqeyinə birmənalı dəstək verən dövlətlərdən biri olub. Rəsmi İslamabad Ermənistanın işğalçılıq siyasətini açıq şəkildə pisləyərək Azərbaycanın ərazi bütövlüyünə birmənalı şəkildə dəstəyini ifadə edib. Bu prinsipial mövqeyinə görə Pakistan indiyə qədər Ermənistanla diplomatik münasibətlər qurmayıb və onunla iqtisadi-ticarət əlaqələrindən imtina edib. Bu, Azərbaycana verilən sarsılmaz dəstəyin ən bariz nümunələrindən biridir. Xüsusilə 2020-ci ildə İkinci Qarabağ müharibəsi zamanı Pakistanın Azərbaycana verdiyi siyasi və mənəvi dəstək qardaşlıq münasibətlərimizin ən yüksək səviyyədə olduğunu sübut etdi. Müharibə dövründə Pakistan rəsmiləri Azərbaycanın haqq işini açıq şəkildə müdafiə etdilər, Ermənistanın təcavüzkar siyasətini qətiyyətlə pislədilər. Hətta Pakistan parlamenti Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləyən rəsmi bəyanatlar qəbul etdi. Müharibədən sonra da Pakistan öz dəstəyini davam etdirərək işğaldan azad edilmiş ərazilərin bərpası prosesinə töhfə verməyə hazır olduğunu bildirib. Bu, iki dövlət arasında dostluğun artıq iqtisadi və strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini göstərir. Azərbaycan-Pakistan münasibətləri yalnız strateji əməkdaşlıqdan ibarət deyil, eyni zamanda sarsılmaz qardaşlıq və qarşılıqlı etimada əsaslanan nümunəvi dostluq modelidir. Qarşıdakı dövrdə bu əlaqələrin daha da dərinləşəcəyi və yeni əməkdaşlıq istiqamətlərinin formalaşacağı gözlənilir.

Azərbaycan və Pakistan arasında iqtisadi-ticari əməkdaşlıq gündən-günə genişlənir və strateji xarakter daşıyır. Hər iki dövlət iqtisadi əlaqələrin inkişafına xüsusi önəm verir, bu istiqamətdə ardıcıl addımlar atır. Qarşılıqlı ticarət dövriyyəsinin artırılması məqsədilə müxtəlif səviyyəli görüşlər, iqtisadi forumlar və hökumətlərarası komissiya iclasları keçirilir. Bu təşəbbüslər sayəsində bir çox mühüm layihələr həyata keçirilib və yeni əməkdaşlıq imkanları üzərində iş aparılır. Son illərdə ticarət dövriyyəsində artım müşahidə olunsa da, Bakı və İslamabad bu rəqəmlərin daha da yüksəlməsini hədəfləyir. Sahibkarlar arasında əlaqələrin gücləndirilməsi, investisiya mühitinin daha da əlverişli hala gətirilməsi və sərmayələrin cəlb olunması istiqamətində müzakirələr davam edir.

Azərbaycan və Pakistan arasında iqtisadi əməkdaşlıq geniş spektri əhatə edir. Enerji, kənd təsərrüfatı, əczaçılıq, ticarət, nəqliyyat, tikinti və informasiya texnologiyaları sahələrində böyük potensial mövcuddur. Azərbaycanın zəngin neft-qaz ehtiyatları və bu sahədə qazandığı təcrübə Pakistan üçün mühüm əhəmiyyət kəsb edir. Digər tərəfdən, Pakistanın əczaçılıq, tekstil və aqrar sahədəki imkanları Azərbaycan bazarında öz mövqeyini gücləndirmək üçün geniş perspektivlər açır. İqtisadi əlaqələrin daha da möhkəmləndirilməsi üçün əsas hədəflərdən biri ticarət maneələrinin aradan qaldırılması, gömrük və logistika sahəsində əməkdaşlığın genişləndirilməsidir. Xüsusilə nəqliyyat və tranzit marşrutlarının inkişaf etdirilməsi iki ölkə arasında ticarət dövriyyəsinin artmasına ciddi təkan verə bilər. Azərbaycanın əlverişli coğrafi mövqeyi və beynəlxalq nəqliyyat dəhlizlərinin üzərində yerləşməsi Pakistan üçün yeni ixrac imkanları yaradır.

Sərmayələrin təşviqi də iqtisadi münasibətlərin əsas istiqamətlərindən biridir. Pakistan və Azərbaycan hökumətləri bu sahədə işçi qruplar yaradaraq qarşılıqlı investisiya imkanlarını dəyərləndirir və sahibkarlar üçün daha əlverişli şərait formalaşdırırlar. Bütün bu təşəbbüslər və həyata keçirilən layihələr iki ölkə arasında iqtisadi əlaqələrin daha da güclənməsinə xidmət edir. Azərbaycan və Pakistan arasında iqtisadi əlaqələr sürətlə inkişaf edir. 2024-cü ildə iki ölkə arasındakı ticarət dövriyyəsi 22 milyon 48 min dollara çatıb ki, bu da 2021-ci illə müqayisədə təxminən ikiqat artım deməkdir. Azərbaycanla Pakistan arasında siyasi əlaqələrin yüksək səviyyədə olması iqtisadi sahəyə də müsbət təsir göstərir. Rəsmi səfərlər, iqtisadi forumlar və biznes görüşləri bu münasibətlərin daha da dərinləşməsinə xidmət edir. Ticarətlə yanaşı, turizm sahəsində də ciddi irəliləyişlər qeydə alınıb. 2024-cü ildə Pakistandan Azərbaycana gələn turistlərin sayı 46,7 faiz artaraq 81 min 427 nəfərə çatıb. Bu dinamika iki ölkə arasında qarşılıqlı marağın artdığını və yeni əməkdaşlıq imkanlarının yarandığını göstərir. Pakistan Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin bərpasında da fəal iştirak etməyi planlaşdırır. Xüsusilə Qarabağa Pakistan sərmayələrinin cəlb olunacağı gözlənilir. Azərbaycan da öz növbəsində Pakistan iqtisadiyyatına daha çox investisiya yönəltməyi hədəfləyir. Bütün bu addımlar iki ölkə arasında əlaqələri daha da möhkəmləndirəcək və iqtisadi əməkdaşlığı yeni səviyyəyə yüksəldəcək.

Azərbaycan və Pakistan arasında hərbi əməkdaşlıq strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib və dinamik şəkildə inkişaf edir. İki ölkə müdafiə sahəsində müxtəlif sazişlər imzalayıb, ortaq hərbi təlimlər keçirib və müdafiə sənayesində əməkdaşlığı genişləndirib. Pakistanın aviasiya və müdafiə texnologiyaları sahəsindəki inkişaf etmiş hərbi sənayesi Azərbaycanın bu sahədəki ehtiyaclarını qarşılamaq baxımından xüsusi əhəmiyyət daşıyır. Azərbaycan Silahlı Qüvvələri ilə Pakistan Ordusu arasında da yaxın əlaqələr qurulub. Hərbi-texniki əməkdaşlıq çərçivəsində qarşılıqlı dəstək, təcrübə mübadiləsi və kadr hazırlığı aparılır. Azərbaycanlı zabitlər Pakistanın nüfuzlu hərbi akademiyalarında təhsil alır, bilik və bacarıqlarını daha da təkmilləşdirirlər. Xüsusilə Pakistanın istehsal etdiyi müasir döyüş texnikaları Azərbaycanın diqqət mərkəzindədir. Son illərdə bu sahədə ən mühüm addımlardan biri Azərbaycanın JF-17C çoxməqsədli döyüş təyyarələrini əldə etməsi olub. 2024-cü il sentyabrın 25-də Prezident İlham Əliyevə yeni təyyarələrin təqdim edilməsi Azərbaycanın hərbi gücünü daha da artıran strateji qərarlardan biri kimi qiymətləndirilir. Bundan əlavə, Prezident İlham Əliyevin 2023-cü ilin iyulunda İslamabadda Pakistanın "Milli Aerokosmik Elm və Texnologiya Parkı"ndakı hərbi sərgi ilə tanışlığı iki ölkə arasında hərbi-texnoloji sahədə əməkdaşlığın inkişafına mühüm töhfə verib. Bu strateji tərəfdaşlıq Azərbaycanın hərbi imkanlarını gücləndirməklə yanaşı, regional və beynəlxalq təhlükəsizlik sistemində mövqeyini də möhkəmləndirir. Aydındır ki, Azərbaycan və Pakistan arasında hərbi əməkdaşlıq gələcəkdə daha da genişlənəcək, yeni texnologiyalar, birgə layihələr və təcrübə mübadiləsi bu tərəfdaşlığı daha da gücləndirəcək.

Bu günlərdə Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif Azərbaycanda səfərdə olarkən Prezident İlham Əliyevin iştirakı ilə iki ölkə arasında əməkdaşlığa dair razılaşmalar əldə olunub. Xüsusilə Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR) ilə Pakistanın neft və qaz şirkətləri arasında Anlaşma memorandumları imzalandı. Bundan başqa, səfər çərçivəsində "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi ilə Pakistan İslam Respublikasının Federal Gəlirlər Şurasının Gömrük Xidməti arasında ilkin elektron məlumat mübadiləsi haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş", "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Pakistan İslam Respublikasının Milli Ərzaq Təhlükəsizliyi və Tədqiqatı Nazirliyi arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Pakistan İslam Respublikasının İqlim Dəyişmələri və Ətraf Mühitin Koordinasiyası Nazirliyi arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlığa dair Niyyət Protokolu", "Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi ilə Pakistanın Milli Müdafiə Universiteti arasında elmi tədqiqat və əməkdaşlıq fəaliyyətləri sahəsində Anlaşma Memorandumu" və "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi ilə Pakistan İslam Respublikasının Milli Peşə və Texniki Təlim Komissiyası (NAVTTC) arasında peşə təhsili sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" imzalanıb.

**Musa BAĞIRLI,**
**"Respublika".**